# AĞDAŞ: Ənənəvi istehsal sahələrinin dirçəldilməsi uğurları artırır



***Qədim Ərəş tortağında əkinçiliyin və maldarlığın tarixi minilliklərin dərinliyinə gedib çıxır. Dağətəyi münbit torpaqlar, bol günəş, Kür çayının yaxınlıqdan axıb getməsi dolanışığı halal zəhmətdən çıxan insanların tarixi məşğulluğu üçün zaman- zaman əlverişli şərait yaradıb.***

Ötən əsrin ortalarında Mingəçevir dəryaçası yaradılandan, rayon ərazisindən keçən Yuxarı Şirvan kanalı çəkiləndən sonra Ağdaşda on min hektarlarla torpaq tarixdə ilk dəfə əkin- biçin dövriyyəsinə qatılıb. Ümummilli lider Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci dövründə isə intensiv əkinçiliyin və heyvandarlığın inkişafı sahəsində Ağdaşda da böyük irəliləyişə nail olunub. Aqrar sahədə məhsul istehsalının bir neçə dəfə artması, yüksək təsərrüfatçılığın təşəkkülü o illərdə həyatın digər sahələrində də ciddi dəyişikliklər yaradıb. Yaşayış məntəqələri böyüyüb, abadlaşıb. Əhalinin həyat səviyyəsi də əsaslı surətdə yüksəlib.

Rayona budəfəki səfərimizin təəssüratını, ilk olaraq, bu yöndən qələmə almağımızın səbəbi odur ki, sovet dövrünün sonundakı dağıntıların və müstəqillik epoxasının ilk illərindəki başıpozuqluğun seli o vaxtaqədərki yüksəlişin boy göstərən əksər nişanələrini yuyub aparıb. İndi isə ənənələr bərpa edilir.

**Bu mövzuda söhbətimizin bu məqamında müsahibimiz – Ağdaş Rayon İcra Hakimiyyətinin başçısı Tofiq İbrahimov bildirdi:**

– Dədə-babalarımız yaxşı deyiblər ki, su gələn arxa bir də gələr. Bu həqiqətə sadiq qalan xalqımız tarixi fəlakəti sovuşdurmaq, suverenliyi xilas etmək, ölkəni müstəqillik şəraitində quruculuq məcrasına qaytarmaq üçün hamılıqla ayağa qalxıb öz ümummilli liderini hakimiyyətə gətirdi. Ulu öndər Heydər Əliyev demokratik cəmiyyətin və yeni iqtisadi sistemin yaranmasının təmin edən tarixi islahatları həyata keçirməklə ölkəni dirçəliş və inkişaf yoluna çıxartdı. Böyük rəhbərin milli maraqlara uyğun siyasi kursunu və alternativi olmayan bu yolunu Prezident İlham Əliyevin inamla davam etdirməsi nəticəsində Azərbaycan hərtərəfli yeni iş və tərəqqi mərhələsinin uğurlarını ildən- ilə artırır.

Ölkəmiz elə bir əsaslı inkişaf sferasına çıxıb ki, dünyanı sarsıdan böhran onu uğurlar yolundan döndərə bilmir. Ümumi inkişafımızın qlobal böhrandan əziyyət çəkən neft sənayesindən asılılığını minimuma endirmək üçün dövlət başçısının xüsusi diqqət və köməkliyi ilə milli iqtisadiyyatımızın digər ənənəvi sahələrinin, eləcə də kənd təsərrüfatının miqyaslı inkişafını təmin etmək üçün ildən əsaslı tədbirlər həyata keçirilir.



Möhtərəm Prezidentimiz hökumətin ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında bir daha vurğuladı ki, ölkəmizdə həyata keçirilən əsaslı və genişmiqyaslı iqtisadi islahatlar nəticəsində Azərbaycan bu gün regionun lider dövləti mövqeyini qoruyub saxlayır. İlin əvvəlində isə dövlət başçısı 2016-cı ilin "dərin islahatlar ili" olacağına əminliyini ifadə etmişdi. Ötən müddət bu əminliyin gerçəkləşməsinə hər sahədə əsas yaratdı.

Dövlət başçısı proqram xarakterli yekun nitqində ölkə iqtisadiyyatının aparıcı sahələri sayılan sənaye və kənd təsərrüfatının daha da inkişaf etdirilməsi üçün konkret tapşırıq və tövsiyələrini verdi. Ölkəmizin ixrac potensialının artırılmasını və idxaldan asılılığın maksimum dərəcədə azaltmağı prioritet vəzifə kimi qarşıya qoyan Prezident İlham Əliyev ixrac bazarlarının araşdırılması və müəyyən edilməsi istiqamətində də ciddi işlər aparılmasının, rəqabət qabiliyyətli məhsul istehsalının artırılmasının vacibliyini önə çəkdi. Bütün bu tədbirlər, həqiqətən, su gələn arxa bu dəfə daha gur və davamlı axının təmin edilməsi deməkdir.

Başçı daha sonra bildirdi ki, bu günlərdə rayonun yarımillik sosial- iqtisadi inkişaf göstəriciləri yekunlaşdırılmışdır. Ölkəmizin bütün bölgələrində olduğu kimi, Ağdaş rayonunda da sosial-iqtisadi inkişafın qorunub saxlanması, yeni fəaliyyət sahələrində də uğurlara nail olunması üçün zəruri tədbirlər görülüb. Bu dövrdə kənd təsərrüfatında sənənəvi isthehsal sahələrinin dirçəldilməsi və genişləndirilməsi ilə bağlı inamlı addımlar atılıb. Əhalinin yeni iş yerləri ilə təmin olunması sahəsində məqsədyönlü işlər görülüb.

İş yerləri ilə təminatda və yoxsulluğun azaldılmasında, ilk növbədə, pambıqçılıq ənənələrinin bərpası piroritet təşkil edir. Çünki rayonda pambıqçılığın inkişaf etdirilməsində yüksək nəticələrin əldə olunması üçün zəngin təcrübə və imkanlar var. Hələ 1981-ci ildə Ağdaşda 10 min 200 hektar sahədən 35 min ton pambıq yığılmışdı. Bu, rayonun pambıqçılıq tarixində rekord göstərici sayılır. Sonradan bu sahəyə marağın azalması səbəbindən pambıqçılıq arxa plana keçdi. Bu sahənin inkişaf etdirilməsi istiqamətində Prezident İlham Əliyevin qarşıya qoyduğu vəzifələr, göstərdiyi hərtərəfli kömək artıq öz bəhrəsini verməkdədir.

Ötən illə müqayisədə pambıq əkininin dəfələrlə artması bu gəlirli sahənin geniş perspektivlərindən xəbər verir. Hazırda rayonun müxtəlif kəndlərində pambıq əkini üçün 1154 hektar ərazidə səpin aparılmış, normal bitiş alınmışdır. Tarlalarda yüksək məhsul götürmək üçün bugünlərdə fermerlər pambıq sahələrinə aqrotexniki qulluq göstərirlər.

Eyni sözləri baramaçılıq haqqında da demək olar. Rayonda ənənəvi sahələrdən olan baramaçılığın inkişafı üçün kəndlərdə geniş izahat işləri aparıldı. Göstəriləcək köməyə və yüksək gəlir götürmək imkanına əmin olan adamlar ipəkqurdu saxlamağa razılıq verdikdən sonra Qax Damazlıq İpəkçilik Stansiyasından 50 qutu toxum gətirilərək kümçülərə paylandı. İlk addım olaraq, bu mövsümdə gözlənilən 1 ton barama əvəzinə, 2 ton məhsul tədarük olunaraq "Şəki İpək" ASC-yə təhvil verildi. Ayrı- ayrı ailələr baramaçılıqdan 5-6 həftəyə 1000--1500 manat qazanc götürdülər. Ölkə Prezidentinin dediyi kimi, 45 gün ərzində insanlar dövlətin dəstəyi ilə halal pul qazanıblar. Bu nəticələr rayonda gələn il baramaçılığı bir neçə dəfə inkişaf etdirmək üçün yüksək stimul yaradıb.

Ağdaşda çəltikçiliyin inkişaf etdirilməsi üçün də əlverişli imkan var. Bu il 1282 hektarda düyü əkilmiş və hazırda sahələrə aqrotexniki qulluq göstərilir, bol məhsul gözlənilir. Kənddə ənənəvi məşğulluq sahələrinin dirçəldilməsi işsizliyin aradan qaldırılmasına da önəmli kömək olmuş , bu mövsümdə 3 mindən çox kənd sakini haqqı ödənilən işlə təmin olunub.

Heyvandarlıq, taxılçılıq və tərəvəzçiliyin inkişaf etdirilməsi də diqqət mərkəzindədir. Bu ilin məhsulu üçün payızda səpin aparılmış 11 min 73 hektar taxıl zəmisindən 34 min ton taxıl istehsal olunub. Yazlıq əkinlər zamanı isə 6 min 543 hektar, bitkiçilik məhsulu o cümlədən 768 hektar tərəvəz, 452 hektar dən qarğıdalı, 240 hektar kartof, 253 hektar bostan, 1311 hektar çəltik, 114 hektar lobya, 3 hektar vələmir, 26 hektar şəkər çuğunduru, 1 hektar günəbaxan və 2221 hektar yonca səpilmişdi. İndiyədək 15 min 685 ton tərəvəz, 2 min 328 ton kartof, 931 ton bostan məhsulları yığılıb.

Rayon ərazisində 7 hektarda istixana yaradılıb və bol məhsul götürülür. İlin sonunadək 10 hektarda yeni istixana yaradılması nəzərdə tutulub. Məhsuldarlığı yüksəltmək üçün fermerlərin cins mal və keyfiyyətli toxum sortları ilə təmin edilməsinə daim diqqət yetirilir. Maldarlara göstərilən himayədarlıq nəticəsində iri malın sayı artaraq hazırda 80 min başı ötüb, xırda heyvanlar isə 100 min başa çatıb.

Hesabat materiallarından öyrəndik ki, ilin birinci yarısında digər sahələrdə də nəzərəçarpan irəliləyiş əldə olunub.





Mərkəzləşdirilmiş qaydada istifadə edilən investisiyalar nəzərə alınmadan, tikinti işləri 2,7 faiz, kənd təsərrüfatı istehsalı 2,6 faiz, sənaye məhsulu 1,7 faiz artıb. Bu dövrdə rayonda 7 milyon 452 min manatlıq tikinti-quraşdırma işləri aparılıb. İlin əvvəlindən 458-si daimi olmaqla 3864 yeni iş yeri yaradılıb. Məşğulluq Mərkəzinə müraciət edən 928 işaxtaran 524 nəfər müxtəlif peşə və ixtisaslar üzrə işə düzəldilib.

Humanitar sahələrin yeniləşdirilməsi, bazasının möhkəmləndirilməsi ilə bağlı quruculuq işləri də uğurla davam etdirilir. Son 2 ildə Abad, Qaribli, Eymur, Cardam, Kotanarx, Birinci Aral kəndlərində ümumi şagird yeri 1380 nəfər olmaqla tam orta, Şordəhnə, Qaradağlı kəndlərində ümumi orta, Qaroğlan kəndində isə ibtidai məktəblər istifadəyə verilib. İlin birinci yarımilində isə Qarağanşıxlar, Qülbəndə, Ərəbşəki, Tofiqi kəndlərində ümumi şagird yeri 660 təşkil edən 2 tam, 3 ümumi orta məktəbin tikintisi başa çatdırılıb. 10 nömrəli şəhər körpələr evi-uşaq bağçası və Aşağı Ləki kənd uşaq bağçasında aparılan əsaslı təmir işləri davam etdirilir.

Ölkə iqtisadiyyatının şaxələndirilməsi sahəsində aparılan məqsədyönlü işlər dövlət büdcəsindən sosial və digər tədbirlərə ayrılan vəsaitin çoxalmasına təminat verir. 2016-cı il üçün rayon büdcəsi 19 milyon 832 min manat məbləğində təsdiq edilib. Respublika büdcəsindən qarşılıqlı hesablaşma yolu ilə daxil olan vəsaitlər də nəzərə alınmaqla, ilin birinci yarısında büdcənin mədaxil hissəsi 9 milyon 535 min manata qarşı, 9 milyon 607 min manat icra olunub, 100,8 faiz yerinə yetirilib. Yerli gəlirlər üzrə plana isə 2 milyon 245 min manata qarşı, 2 milyon 307 min manat, yaxud 102,7 faiz əməl olunub.

Əhalinin rifah və güzəranının yaxşılaşmasında xidmət sahələrinin ahəngdar işinə nail olmaq önəmli rol oynayır. Elektrik enerjisi, su və təbii qazla təminatı yaxşılaşdırmaq məqsədilə ilin əvvəlindən bu sahələr üzrə təmir və yenidənqurma işləri aparılıb. Kənd yaşayış məntəqələrində qazlaşma işləri davam etdirilib, mövcud şəbəkənin təhlükəsiz və fasiləsiz işi təmin edilib.

Qazanılan uğurları davam etdirmək, qarşıda duran yeni vəzifələrin gerçəkləşdirilməsini təmin etmək üçün konkret fəaliyyət proqramı Ağdaşı yüksəliş yolu ilə irəli aparır. Nəzər saldığımız fakt və rəqəmlər, ümumi yeniliklər bu həqiqəti bir daha təsdiqləyir.

Bu günlərdə tarla və zəmilərdə, ferma və sexlərdə, tikinti meydanlarında yayın qızmarına sinə gərərək gecəli-gündüzlü çalışan ağdaşlılar bununla ölkəmizin iqtisadi yüksəlişinə öz töhfələrini artırır, güzəranlarını daha da yüksəltmək üçün lazımi maddi təminat yaradırlar.

***Tahir AYDINOĞLU, Ziyəddin SULTANOV, "Xalq qəzeti"***